# ŞƏHİD HÜSEYNZADƏ HƏMİDAĞA

Bu gün Azərbaycan xalqı üçün “ŞƏHİD” adından yüksən ad yoxdur. Ölkəmizin hər bölgəsində salınan, hər cümə axşamı, hər bayram günü izdihamlı olan “Şəhidlər Xiyabanı” da insanların ən müqəddəs yer hesab etdikləri yerlərdəndir. İllərlə işğal altında olan Qarabağın azad olunması uğrunda canını fəda edən igid oğullarımızın qəhrəmanlığı dillər əzbəridir. Minlərlə şəhid minlərlə ağlar ana-bacı deməkdir, minlərlə beli bükülən, arxasız qalan ata-qardaş deməkdir, neçə-neçə dul gəlin, atasız körpə deməkdir. Xeyirlə şər qardaşdır demişlər və biz bunu son müharibədə gördük. bir gözümüzdə sevinc, bir gözümüzdə kədər qələbəmizi də qeyd etdik, şəhidlərimizi də dəfn etdik. Bu qələbədə bizim Maştağa şəhidlərinin də öz payı var...

“Qarabağ Azərbaycandır” jurnalının 2021-ci il “Xüsusi buraxılış”ının üz qabığında “44 günlük Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş Maştağa qəsəbəsinin igid oğullarına həsr olunub” sözləri yazılmışdır. Jurnalın bu nömrəsi Maştağa şəhid ailələrinə hədiyyə edilmişdir. Soruşduqsa da, bu jurnalın kim tərəfindən çap olunduğunu heç kimdən öyrənə bilmədik...

Sentyabrın 28-də Şəhid Bəhruz Əliyevin anım mərasimində eşitdik ki, daha bir şəhidimizin Şəhid Həmidağa Hüseynzadənin də anım günüdür. Maştağa Şəhidlər Xiyabanında Hüseynzadənin şəklini görmüşdüm. Yasamalda dəfn olunduğunu demişdilər. Şəhid Ağacavad Mütəllimzadənin və Şəhid Vahid Ağavevin anaları ora gedəcəklərini deyəndə, mən də onlara qoşuldum. Küçələrdən sel axırdı, amma şəhid anaları nəyin bahasına olursa-olsun ora gedəcəklərini bildirdilər. Nəhayət, bir taksiyə oturub getdik, təxmini ünvanı axtarmağa başladıq...

Haşiyə: Hüseynzadə Həmidağ Bağı oğlu 1990-cı il avqustun 13-də Bakıda dünyaya gəlmişdir. 1997-2008-ci illərdə Abdulla Şaiq adına orta məktəbdə, 2008-2012-ci illərdə Heydər Əliyev adına Azərbaycan Əli Hərbi Məktəbində təhsil almış, hərbi məktəb fərqlənmə ilə bitirmişdir. Sonra Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin birillik motoatıcı taqım komandiri kursunu bitirmişdir.

2013-cü ildə Ağcabədi rayonunda, daha sonra Ağdamın Yusifcanlı kəndində yerləşən postlarda xidmət etmiş, Azərbaycan Silahlı qüvvələrinin 95-ci il dönümündə yubiley medalı ilə təltif edilmişdir.

2014-cü ilin noyabrından Xüsusy Təyinatlı Qüvvələrdə baş kəşfiyyatçı kimi xidmət göstərmiş, 2015-ci ildə Türkiyədə komando təməl kurslarında təhsil almış, 2016-ci ildə Aprel döyüşlərində iştirak etmiş, medalla təltif olunmuşdur. 2016-17-ci illərdə Gürcüstanda hərbi kursda təhsil almışdır. 2017-ci ildə qrup komandirinin müavini, 2019-cu ildə qrup komandiri olmuşdur. İşlədiyi müddətdə bir çox fəxri fərmanlarla, “Qüsursuz xidmətə görə” və s. medallarla təltif edilmişdir. II Qarabağ müharibəsində Murovdağda postların alınmasında qəhrəmancasına şəhid olmuşdur. İkinci Fəxri Xiyabanda dəfn olunmuşdur. Şəhadətindən sonra “Qarabağ ordeni”, “Kəlbəcərin alınması uğrunda”, “Vətən uğrunda” “İgidliyə görə” medalları ilə təltif olunmuşdur. 2018-ci ildə ailə qurmuş, 2019-cu il iyunun 23-də Həmidə adlı qızı dünyaya gəlmişdir...

Qapı açıq olsa da, döydük, aəsaçlı bir ana bizi qarşıladı. Üz-gözündən yorğunluq tökülürdü. Elə mərasim evindən indicə gəldiklərini söylədi, hətta “gərək başqa vaxt gələydiz” dedi. Mən isə “Həmidağa haqqında məlumatım var, jurnalda da oxumuşam, sosial şəbəkələrdə dəfn və qırx mərasimlərini də izləmişəm, sadəcə sizin fikirləriniz lazımdır”. Gülnarə xanım bizə Həmidağa Hüseynzadəyə həsr olunmuş bir jurnal və şəhidlərə aid bir kitab göstərdi və Həmidağa haqqında ayrıca kitab da yazıldığını bildirdi.

“Yaxşı olar ki, şəhidimizin uşaqlığından, gəncliyindən danışasız. Ümumiyyətlə, Həmidağa adı haradandır, seyidsinizmi” deyə soruşdum, “Yox, Sübhhəmiddən tapmışam” dedi və nəhayət oturub söhbətə başladı: “Uşaqlıqda nadinc idi, amma məzəli uşaq idi. Avtomat düzəldərdi, davalı kinolara çox baxardı. Heyvanları, quşları sevirdi. Üzügülər, mehriban idi. Heç kimin xətrinə dəyməzdi...”.

Gülnarə xanım bir qədər susdu, amma elə bil ürəyində danışırdı... Oğul həsrətilə yanan, nəhayət, Sübhəmid ziyarətgahına üz tutan, özünün dediyi kimi oğul tapan, adını da buna xarir Həmidağa qoyan, illərlə zəhmət çəkib onu böyüdən, oxutduran, hər addımına, hər uğuruna sevinən, evləndirib, ondan nəvə görən, günlərin bir günü sağ-salamat yo-



la salıb, şəhid xəbərini alan ana sanki şəhid oğlunun bütün həyatını kino lenti kimi gözü önündən keçirirdi...

“Həmidağanın tərcümeyi-halında Bakıda doğulduğu yazılmışdır. Bəs onu Maştağa ilə bağlayan nədir?” deyə soruşduqda, dedi: “Atası Xızıdandır, mən Bakıdanam. Maştağada bağımız, hər il maydan oktyabra kimi Maştağada olurduq. Nəmidağanın uşaqlığı demək olar ki, Maştağada keçmişdir. İdmanı sevirdi, əmisi idmançı idi, məşqçi idi, bir müddət məşğul oldu. Məktəbi əlaçı oxuyubdur. Məktəbi bitirib, sənədlərini öz arsu ilə Heydər Əliyev adına Ali Məktəbə verib və qəbul olunub. İşi məxfi idi, işi haqqında bizə məlumat verməzdi. Amma bilirdim ki, təlimlərə gedir. Zəng edb deyirdi ki, gələcəyəm, gözləyirdim. 14 il hərbçi olub. Müharibə başladı. Sentyabrın 25-də zəng vurub dedi ki, təlimə gedirəm, bilinçik bişir. Evə gəldi, mənimlə, qardaşı ilə görüşdü, atası bağda idi, sonra evinə getdi. 26-sı evdən çıxıb gedib təlimə. Heç demə bu son görüşü imiş. 26-da onun yarısında zəng vurub atasına deyib ki, ata salam, bağışla ki, gəlib səni görə bilmədim. Dostlarımın sənə salamı var. Üç günə qayıdıram. Arvadına da deyib ki, üç günə qayıdıram...”.

Gülnarı xanım yenə də susdu. Görünür müharibənin başlanma xəbərini, o gün yaşadıqlarını dilinə gətirməyə çətunlik çəkirdi. Kövrəlmişdi, bircə kəlməyə bənd idi ki, üzündəki buludlar leysan töksün. Bunu bildiyim üçün mən də susurdum. Daha doğrusu, o seld batacağımdan qorxurdum. Şəhid analarının göz yaşlarının sellənməsi mənə hələ 90-cı illərdən tanış idi. Amma Gülnarə xanım özünü saxladı, gözündəki buludları yağdırmadı, dərindən köks ötürüb sözünə davam etdi: “ Sentyabrin 27-də axşam gəlin dedi ki, müharibə başlayıb. Ağladım, girib-çıxdım, bilmədim nə edim. Dostlarının arvadına zəng vurub soruşdum ki, onlar hardadır. Heç nə demədilər. sentyabrın 28-də Murovdağda şəhid olub. Oktyabrın 2-də Hərbi Komissarlıqdan zəng vurub atasına deyiblər ki, Hüseynzadə Həmidağa sizin oğlunuzdur. Yenidən zəng vurub ünvanı soruşublar. Sonra atası özü zəng vurub soruşub, deyiblər ki, oğlunuz şəhid olub. Zənazəni 2-də gətiriblər...”.

Gülnarə xanım kipriklərini isladan damlaları əlilə sildi. Doluxsundu, sanki həmin o dəhşətli xəbər gələn gün yaşadıqlarını bir də yaşadı. Bir qədər keçdi, mən də guya nəsə yazırmış kimi kompüterlə məşğul oldum. Əslində heç nə yazmırdım, sadəcə ananın özünə gəlməsini gözləyirdim. Bu an çox çətin andır və bu dəhşətli anı dəfələrlə yaşamışdım. Dağ boyda oğul itirən anaya təkrar-təkrar həmin anları yaşatdığımı böyük bir günah kimi qəbul edirdim, amma Vətən uğrunda hər şeyindən keçib, həyatını qurban verən şəhid balalarımız haqqında nəsə yazıb, gələcək nəsillərə yadigar qoymağı da özümə borc bilirdim. Ona görə də nəyin bahasına olursa-olsun, bu ağır yükün altına girməyə məcbur idim...

Gülnarə xanım yadına nəsə düşübmüş kimi fikirdən ayrıldı və fəxrlə dedi: “Həmidağa Aprel döyüşlərində qəhrəmanlıqla vuruşub, o zaman Ağdərəni almışdılar, İlham Əliyev onu o vaxt medalla təltif etmişdi. İndi də müharibə başlayanda qrup komandiri olub, 40 nəfərlik qrupa rəhbərlik edib. Qabaqda özü gedibmiş, 40 erməni öldürüb, Murovdağda postları alıblar. Qrupda hamı salamat qalıb, Həmidağa qəhrəmancasına həlak olub. Orden və medallar alıb. Üç dost idilər, Akademiyada bir yerdə oxuyublar, iki dost bir gündə şəhid olublar.Hüseynzadə Həmidağa Bağı oğlu və Hüseynov Şirbala Hüseynbala oğlu. Şirbala kapitan idi, Cəbrayılın alınmasında şəhid oldu. İkisinin cənazəsi bir gündə gətirildi... Gülnarə xanım bizə “525-ci qəzet”, “Nəbz” qəzetində və bir sıra toplularda çap olunmuş məqalələri də göstərdi. Eyni zamanda Həmidağanın şeir yazdığını deyib, bir nümunəni verdi: Yolumu gözlə.

Bitəcək hicranın, həsrətin ömrü,  
Bir gün gələcəyəm, yolumu gözlə.  
Daşlı, kəsəklidir bir kursant ömrü,  
Bir gün dönəcəyəm, yolumu gözlə.

Zamanın tufanı tuş gəldi bizə,  
Gözümün önündə qan çıxdı dizə.  
Gərək sevən ürək həsrətə dözə,  
Bir gün gələcəyəm, yolumu gözlə.

Aylarla üzümü göprməsən belə,  
“Vəfasız” sözünü gətirmə dilə.  
Döyüb qapınızı mən gülə-gülə,  
Bir gün dönəcəyəm, yolumu gözlə.

Bu qara buludlar ötüb keçəndə,  
Zəfər badəsini dostlar içəndə.  
Analar gözaltı gəlin seçəndə,  
Mən də gələcəyəm, yolumu gözlə.

Söhbətimizə Həmidağanın xalası Leyla xanım da qoşuldu;: “Müharibəyə bir həftə qalmış bizə gəldi, çox qəmli idi. Onlar bilirdilər. Kəşfiyyatçı idilər. O gün elə bil o gülərüzlü Həmidin yerində başqa bir Həmid var idi. Dedim ki, otur, dedi yox, dostlarım maşındadır, tələsirəm, gəldim sizinlə görüşüm...

Həmidağa hərtərəfli uşaq idi. Mən müəlliməm, uşaq psixologiyasını yaxşı bilirəm. Onun bir gülüşü var idi..., çox şən idi. Evlənmişdi, gözəl ailə başçısıydı. Hərbdə ciddi idi, amma evdə, işdən kənarda zarafatcıl idi. Savadlı idi, sözçün cibə girmirdi, hazırcavab idi”...

Evdəki qonaqlar seyrələndə şəhidimizin atası ilə görüşdük, şəhid oğlu haqqında danışmasını xahiş etdik. Kərbəlayi Bağı əyləşdi və söhbətə başladı: ”Uşaqlıqdan dəcəl olub. Həmişə deyərdim ki, nadinc uşaqlar böyüyəndə sakit olurlar. Elə elə də oldu. Sözə baxan uşaq idi. Hara göndərsəydik, gedərdi, nə istəsəydik, onu edərdi. Oxuyan uşaq idi, kittab oxumağı sevirdi, elmi sevirdi, savadslı adamları sevirdi, istəyirdi ki, hamı oxusun. Həmişə deyirdi ki, uşaqım olsa, onu yüksək səviyyədə oxutduracağam...”.

Kərbəlayi Bağı özünü saxlaya bilmədi, gözlərinin yaşı yanaqlarından süzüldü. Kişilərin ağlamasına dözə bilmirəm. Şəhidlər Xiyabanında çox ağlayan atalar görmüşəm. Analar ağlayanda səsləri eşidilir, amma atalar içində ağlayır, bəzən heç göz yaşları da görünmür, bəzənsə bacarmırlar, fələyin amansız gərdişindən cana gələn, İblisin törətdiyi dəhşətli olaylardan sarsılan atalar göz yaşını saxlaya bilmir. Gözəl şairimiz Rəfiq Zəkanın misralarını xatırlayıram: “Kövrəklər ağlayar, daşlar ağlamaz, Ağlamaq özü də mərdanəlikdir”...

Kərbəlayi Bağı ağlasa da, başına gələnlərdən şikayət etmədi, özünü ələ aldı, sözünün ardını gətirdi: “Dostları arasında sevilən idi. Kiməsə kömək etmək üçün, tanışlarından kimdən xahiş etsəydi, sözü yerə düşməzdi. Hətta lazım gələndə özü işin dalınca gedərdi. Sadə olub, özünü çəkən olmayıb. Zabit yoldaşlarına, əsgərlərinə qarşı işdə ciddi olsa da, işdən kənarda mehriban olub. Ev yeməklərindən hərbçi yoldaşlarına verərdi ki, onlar ev yeməyi yemirlər. Ailəcanlı idi. Qapıdan girən kimi soruşardı ki, ata hanı? Gəlib məni öpərdi, mehriban görüşərdi...

Evə zəng vurdular, adını, ünvanı soruşdular. Məndən soruşanda duyuq düşdüm ki, uşaq şəhid olub, amma demədilər. Özüm zəng vurub dedim ki, gizlətməyin, əgər belə bir şey varsa, mənə deyin, gedim hazırlığımı görüm. Onda dedilər ki, ağsaqqal, get hazırlığını gör...

Maştağa kənd camaatı da sağ olsun, heç mən deməmişəm ki, onun şəklini orda vursunlar. Amma Maştağa Şəhidlər Xiyabanında da, Cümə məscidinin qarşısında da şəklini vurublar. Kim vurub, bilmirəm. Kənndə onu sevən uşaqlar çox idi, yəqin onlar təşkil ediblər. Ömrünün yarısı Maştağada keçib, o kəndin çörəyini yeyib, suyunu içib. Uşaqlar onu tanıyırlar, eşidən, bilən başsağlığına gəlib. Mən də Maştağa şəhidlərinin həyatını işıqlandıran bir jurnal nəşr etdirmək istədim. Xəbər verdim ki, bütün Maştağa şəhidləri haqqında məlumatları göndərsinlər. Yığıb verdik, bir nömrədə çap etdilər”...

Mən indi bildim ki, şəhid ailələrinə verilən “Qarabağ Azərbaycandır” jurnalının Maştağa şəhidlərinə həsr olunmuş “Xüsusi buraxılış”ını çap etdirən Kərbəlayi Bağı imiş. Allah ömrünü uzun eləsin, Allah ona səbr versin...

“Bəlkə elə Həmidağanı Maştağa Şəhidlər Xiyabanında dəfn edərdilər” deyəndə, Kərbəlayi bağı dedi: “Əslində mən onu anamın yanında dəfn etmək istəyirdim. Sonra Kərbəla yoldaşlarım gəldilər, Hacı Ramingili dövrə vurub mərsiyə dedilər. Məsləhət gördülər, dedilər ki, uşağı şəhidlərdən ayırma. İkinci Xiyabanında dəfn olundu...”.

Bir şey də diqqətimdən qaçmadı. Kərbəlayi Bağı söhbət əsnasında bir dəfə də olsun oğlunun adını çəkmədi. Bizim Bakı kəndlərinin köhnə kişilərinin hamısı belə idi. Elə indinin özündə də övladının adını çəkməyən atalar, analar var. Bu mənim ən çox dəyər verdiyim bir xüsusiyyətdir ki, mən onu şəhid atasında gördüm...

Kərbəlayi oğlunun dostunun şəhid olmasını unutmadı, ondan da bəhs etdi: “Bir dostu var idi Əlimərdan. Mən bilməmişəm, onun da cənazəsi maşında olubmuş, Nasosnuya aparıblar. Mən bilsəydim, qoymazdım, elə onu da Həmidağa ilə bir yerdə Xiyabanda dəfn etdirərdim. Əlimərdanın cənazəsi bacısının ad günündə gəlib. Cənazəsini bacısına hədiyyə elədi...” deyib ağladı Bağı kişi. Bu zaman öz oğluna deyil, oğlunun dostuna, şəhid bacısının halına ağladı...

Allah böyük ürək verib şəhidlərimizə də, ata-analarına da. Allah bütün şəhid ailələrinə səbr versin. Allah şəhidlərimizə rəhmər eləsin, ruhları şad olsun...

***SONA XƏYAL***